# COVİD-19 təhlükəsi ciddidir!

Dünyanı cənginə alan COVİD-19 koronavirus pandemiyası ölkələrdə insanların həyat və sağlamlığına ciddi fəsadlar törətməkdədir.Çoxsayda insanların həyatını itirməsi, hələlik xəstəliyin müalicəsi üçün spesifik dərman preparatlarının və peyvəndin olmaması insanları xəstəliyə yoluxmamaq üçün verilmiş tövsiyələrin ümidində qoymuşdur.

Virus insanlardan insana hava damlaları ilə ötürülür. Xəstəlik heç bir simptomu olmadan insandan insana keçir və bu səbəbdən xəstəliyin yayılması bilinmir və epidemiyanı idarə etməyi çətinləşdirir.Simptomsuz xəstələrlə yanaşı xəstəlik yüksək hərarət,öskürək və 2-27 günlük bir gizli dövrdən sonra qəfil başlayan nəfəs darlığı ilə xarakterizə olunur.-Bəzi xəstələrdə boğaz ağrısı və burun axıntısı əlamətləri də olur.-Xəstəliyin əlamətləri ağır sətəlcəm, septik şok,kəskin tənəffüs çətinliyi sindromu, çoxsaylı orqan çatışmazlığı və ölümlə nəticələnə bilər.Bu virus ölümcül olsa da, ona yoluxmuş əksəriyyətdə yalnız yumşaq simptomlar müşahidə olunur və bu şəxslər xəstəlikdən tam sağalır.Ümumiyyətlə,statistikaya görə yoluxanların 81 faizində simptomlar zəif və əlamətsiz olur.İndiyədək bu virusa yoluxanların 14 faizində simptomlar sərt və yalnız 5 faizində kritik olub. Beləliklə, xəstəlikdən ölüm faizinin çox və ya az olması ölkədə pandemiyaya qarşı aparılan tədbirlərdən, ən əsası əhalinin tələblərə riayət etməsindən, səhiyyə infrastrukturunun vəziyyətindən və s. asılıdır.

Respublikamızda xəstəliyə qarşı mart ayından etibarən karantin rejiminin tətbiqi geniş yoluxmaların qarşısını almaqda əhəmiyyətli dərəcədə təsirli olmuşdur. Sonradan isə karantin rejimində müəyyən yumşaldılmaların aparılması, bəzi vətəndaşların bundan sui-istifadəsi xəstəliyə yoluxma hallarının çoxalmasına səbəb olmuşdur. Nazirlər Kabineti yanında Operativ qərargahın 16 iyun 2020 ci il tarixli məlumatına görə ölkədə ümumilikdə 10662 nəfərdə COVİD-19-a yoluxma faktı qeydə alınıb, onlardan 5948 nəfər sağalıb, 126 ölüm faktı qeyd edilib.

Rayonda da COVİD-19 koronavirus xəstəliyinə qarşı karantin, tibbi-profilaktik və s. tədbirlərin aparılmasına baxmayaraq, son bir ay ərzində yoluxmaların sayı artmaqdadır.Əhali arasında xəstəliyin aşkar edilməsi məqsədilə 6402 nəfərdən test müayinəsi götürülmüş nümunələr hər gün sanitar nəqliyyatla Bakı şəhərində xüsusi ayrılmış laboratoriyalara çatdırılmışdır. Laborator müayinələrin nəticəsinə əsasən 118



nəfərin COVİD-19-a yoluxduğu aşkar edilmişdir.Yoluxma aşkar edilmişlərin hamısı sanitar nəqliyyatla təhlükəsizlik qaydalarına uyğun bu məqsədlə ayrılmış Ağdaş, Balakən və Qobustan rayon xəstəxanalarında karantin dövründə təcrid edilmişdir.Onların bu xəstəxanalarda mütləq şəkildə təcrid edilməsi yerlərdə yoluxmaların qarşısını almaq üçün əhəmiyyətlidir.Hətta simptomları olmayanlar belə təcrid olunduqlarından onların ailə üzvləri, yaxınları yoluxmadan mühafizə olunurlar.Lakin bunu düzgün başa düşməyənlər var ki, onlar bu şəxslərin digərlərinin sağlamlığının qorunmasının əhəmiyyətini fikirləşmirlər. Xəstəxanalara göndərilən şəxslərdən ağır vəziyyətdə olanlar da vardır, hətta göndərdiyimiz bir nəfər Ağdaş xəstəxanasında COVİD-19-dan vəfat etmişdir.

Bu ilin aprel ayının əvvəlindən may ayının 20-nə kimi rayon üzrə 17 xəstələnmə hadisəsi baş vermişdir.Bu yoluxmalar tək-tək olmaqla rayona Bakı, Sumqayıt şəhərlərindən və İsmayıllı rayonundan gətirilmişdir. May ayının 20-dən sonra xəstəliyin kütləvi yoluxma halları rayonun Zarağan-2 ünvanında qeyd edilmişdir. İlk olaraq Mingəçevir şəhərindən həmin ünvana qonaq gəlmiş xəstə şəxslə təmasda olan ailə üzvləri yoluxmuş və onlar da ətrafdakıların yoluxmalarına səbəb olmuşdur. Hazırda həmin ərazidə yoluxanların sayı 70 nəfərə çatmışdır və onlardan hətta bir ailədə 4-5 nəfərin yoluxma halları olmuşdur. Test müayinələrinin nəticəsinə əsasən yoluxma aşkar edilmiş şəxslərin xəstəxanalara göndərilməsində, onlarla təmasda olanlardan test nümunələrinin götürülməsindən imtina hallarının olması böyük təəssüf doğurur.Onlar dərk etməlidirlər ki, xəstəliyin qarşısının alınmasında aparılan bu tədbirlər həm onların həyatı, həm də ailə üzvlərinin, yaxınlarının və eləcə də, bütün əhalinin həyat və sağlamlığının qorunmasına xidmət edir. Rayonda COVİD-19 koronavirus pandemiyası diaqnozlu xəstələrlə əlaqəli tədbirlərin aparılmasında, fədakarlıqla vəzifə borcunu yerinə yetirən 9 nəfər tibb işçisi, 2 nəfər polis işçisi yoluxmaya məruz qalmışdır.

Bütün vətəndaşlara tövsiyə olunur ki, mütləq tibbi maskalardan istifadə etsinlər, bir-biri ilə sosial məsafəni (2 metr) gözləsinlər və əllərin tez-tez sabunla yuyulması, dezinfeksiyaedici məhlullardan istifadəsi tələblərinə əməl etsinlər.Həmçinin respirator xəstəlik əlamətləri (qızdırma, halsızlıq, öskürək, ürəkbulanma, nəfəsdarlığı) hiss etdikdə dərhal 103 təcili tibbi yardım nömrəsinə zəng edərək mütləq çağırış verilsin. Belə halda mütləq test nümunəsi götürülür və nümunənin nəticəsinə əsasən tibbi tədbirlər görülür.Bu xəstələr ev şəraitində özlərini təcrid etməli, tibbi maska taxmalı, ictimai yerlərə və hətta tibb müəssisələrinə getməməlidir. Əhalimiz karantin rejiminin tələblərinə və verilən tövsiyələrə əməl etsələr xəstəliyə tezliklə qalib gəlmək olar, əks halda ciddi təhlükələr baş verə bilər.

**Sabir BAYRAMOV,**
**Qəbələ RMX-nın PHŞ-in direktoru.**

# Önləyici tədbirlər Azərbaycanı pandemiyadan xilas edəcək

Hazırda bütün dünya COVİD-19-la mübarizəyə səfərbər olunub. Ümumdünya Səhiyyə Təşkilatının bu gün üçün qarşısına qoyduğu əsas vəzifələrdən biri bu virusa qalib gəlməkdir.

Azərbaycan koronavirusun hələ olmadığı bir vaxtda ona qarşı qətiyyətli mübarizə tədbirləri görmüş, virusun yayılmasının qarşısının alınması və profilaktikası, əhalinin sağlamlığının mühafizəsi ilə bağlı bütün lazımi tədbirlər ən yüksək səviyyədə həyata keçirilmişdir. Karantində qalanlara hər cür şərait yaradılmış, bunun üçün mövcud imkanlardan maksimum istifadə edilmişdir. Modul tipli xəstəxanaların quraşdırılması ilə ölkənin səhiyyə sistemində əlavə 2000 çarpayılıq ehtiyat yaranmışdır.

Sevindirici hal ondan ibarətdir ki, bu 10 xəstəxananın 4-nü özəl sektor öz vəsaiti hesabına inşa edir.

Məlum olduğu kimi, respublika Prezidentinin təşəbbüsü ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıbdır və ilkin olaraq Prezidentin ehtiyat fondundan bu fonda 20 milyon manat vəsait ayrılmışdır. Bu gün sahibkarlar, özəl sektor və adi vətəndaşlar hesabına fonda yığılmış məbləğ 110 milyon manatı ötüb. Bu, bir daha onu göstərir ki, xalqımız çətin dövrdə birləşə, həmrəylik və birlik göstərə bilir. Eyni zamanda, ictimai təşkilatlar, ilk növbədə, Heydər Əliyev Fondu və digər ictimai təşkilatlar, sahibkarlar bu dövrdə maddi vəziyyəti aşağı olan insanlara humanitar yardım da göstərmişlər və bu proses davam edir. Amma hər kəs bilir ki, bu mübarizədə, əlbəttə ki, əsas yük Azərbaycan dövlətinin üzərinə düşür. Azərbaycan dövləti əlindən gələni edir ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək.



Görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanmışdır və qabaqlayıcı tədbirlər nəticəsində bu gün vəziyyət tam nəzarət altındadır. Son 10 gün ərzində yoluxanların sayı artır. Bu da ondan irəli gəlir ki, yumşalma dövründə bəzi vətəndaşlar məsuliyyətsizlik göstərmişlər. Buna baxmayaraq, vəziyyət tam nəzarət altındadır.

Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır. Dünya praktikası tam başqadır. Bir çox ölkələrdə xəstəliyi simptomsuz keçirənlər, xəstəliyə düçar olmuş insanlar ev şəraitində müalicə alırlar. Əlbəttə ki, bu, onların sağlamlığına təhlükə yaradır. Azərbaycanda koronavirusdan ölənlərin sayının az olmasının səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir.

Ölkəmizdə qabaqlayıcı bütün tədbirlər elə görülüb ki, ən çətin vəziyyətə hazır olaq. Bu məqsədlə 23 yeni laboratoriya alınıb. Koronavirus xəstələrini müalicə etmək üçün Azərbaycanda ən qabaqcıl xəstəxanalar ayrılıb. Bu xəstəxanaların sayı 20-dən çoxdur. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı bu sahədə nümunəvi ölkə adlandırıb.

Ölkə Prezidentinin əsas vəzifəsi insanları bu xəstəlikdən qorumaq, onların həyatını xilas etməkdir. Əlbəttə ki, itkilər də vardır, amma bəzi ölkələrlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bu, onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur. Azərbaycan xalqı bu xidmətləri yüksək qiymətləndirir. Hər gün minlərlə insan ölkə başçısına minnətdarlıq müraciətləri ünvanlayırlar. Bu günə qədər Azərbaycanda koronavirusa yoluxanların sayı 8 minə qədərdir, 350 mindən çox test keçirilib və adambaşına testlərin sayına görə dövlətimiz qabaqcıl yerlərdədir.

Dövlət başçısının tapşırığı ilə sənaye imkanlarımızdan da istifadə edildi. Qısa müddət ərzində tibbi maska və digər zəruri avadanlıq və geyimlər istehsal edən müəssisələr fəaliyyətə başladı.

Koronavirus yoxa çıxmayıb və yoxa çıxmayacaq. Həkimlərin ümumi rəyinə görə, peyvənd icad olunana qədər insanlar bu xəstəlikdən əziyyət çəkəcəklər. Ona görə hamı yeni davranış qaydaları çərçivəsində yaşamağa hazır olmalıdır. Xalqımız həmişə birlik nümayiş etdirmişdir, bundan sonra da nümayiş etdirəcəkdir.

Ölkənin paytaxt və digər mərkəzi şəhərlərində yeni tibb müəssisələri tikilir və yaradılır. Ən çox müalicə olunan xəstələr məhz oradadır. Son illərin aparıcı şirkətlərinin istehsalı olan avadanlıqlar imkan verir ki, istənilən xəstənin müalicəsi təmin edilsin. Bu sahədə çalışan tibb işçilərinin, həkimlərin fədakar əməyi Prezident İlham Əliyev tərəfindən həmişə yüksək qiymətləndirilmişdir: "Mən, Azərbaycan dövləti, Azərbaycan xalqı bu dövrdə gördük ki, həkimlər içdikləri Hippokrat andına sadiqdir, öz vəzifə borclarını şərəflə yerinə yetirirlər. Həkimlərin arasında yoluxanlar da var və onlar öz həyatını risk altına ataraq xəstələri müalicə edir, onları həyata qaytarırlar. Təsadüfi deyil ki, mənim təşəbbüsümlə ölkəmizin və şəhərimizin yeni simvollarından biri olan Alov Qüllələrində məşhur şüar əks olunmuşdur: Azərbaycan həkimlərinə eşq olsun!"

Doğma Azərbaycanımızın hər bir regionunda olduğu kimi Qəbələdə də koronavirusla bağlı görülən işlər yüksək qiymətləndirilir. Qəbələlilərin cənab Prezident İlham Əliyevə minnətdarlıq müraciətləri günügündən artır. Rayonun bütün ictimai yerlərində, yaşayış mənzillərində dezinfeksiya işləri davam etdirilir. Şəhərin mərkəzində 200 yerlik modul tipli xəstəxananın tikintisi başa çatmaq üzrədir.